GÖYGÖL: DİNAMİK İNKİŞAF YOLUNDA

Füsunkar gözəl təbiətə malik, inkişaf etmiş aqrar rayonlardan olan Göygöldə də 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş hesabat yığıncağı keçirilmişdir. **Göygöl Rayon İcra Hakimiyyətinin başçısı Arif Seyidov** iştirakçıları salamlayaraq, rayonun inkişafından, möhtəşəm layihələrin icrasından etraflı söhbət açmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə iyul ayının 13-də Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmiş, görülən işlər müzakirə olunaraq qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Ölkə başçısının rəhbərliyi ilə əvvəlki illərdə olduğu kimi, cari ilin birinci yarımilində sosial-iqtisadi inkişaf davam etmiş, iqtisadi siyasətin prioritet istiqamətləri olan makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, sənaye potensialının gücləndirilməsi, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması və digər sahələrdə əhəmiyyətli işlər görülmüş, nəticədə əhalinin rifahının yüksəlməsi davam etmişdir.

2015-ci ilin birinci yarımilində Göygöl rayonunda sosial obyektlərin tikilməsi, abadlıq-quruculuq işlərinin aparılması, mövcud problemlərin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər davam etdirilmiş, iqtisadiyyatın dinamik inkişafı təmin olunmuşdur.

Rayonda 2015-ci ilin 6 ayı ərzində 340 yeni iş yerləri açılmışdır, bunun da 257-si daimidir.

2015-ci ilin 6 ayında iqtisadiyyatın əsas sahələrində istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 60 milyon 180,9 min manat təşkil etmiş, adambaşına 975,1 manat dəyərində məhsul istehsal edilmişdir.

Aqrar sahənin inkişafına göstərilən dövlət dəstəyinin nəticəsi olaraq 2014-cü il ərzində dövlət büdcəsindən kənd təsərrüfatı məhsulları istehsalçılarına 768,3 min manat məbləğində yardım, o cümlədən, 13 toxumçuluq təsərrüfatlarına istehsal etdikləri buğda toxumuna görə 137,0 min manat subsidiya verilmişdir. Bu da rayonda aqrar sahənin dinamik inkişafına səbəb olmuşdur.

2015-ci ilin 6 ayında kənd təsərrüfatı istehsalçılarına 70 faiz güzəştlə 134,3 ton azot gübrəsi satılmışdır.

Heyvandarlıq sahəsində yüksək göstəricilərə nail olmaq məqsədi ilə hüquqi və fiziki şəxslərə dəyərinin 50 faizini ödəmək şərti ilə 20 baş cins mal-qara satılaraq cins mal-qaranın sayı 154 başa çatdırılmışdır. Eyni zamanda 446 baş mal-qara süni yolla mayalandırılmış, 361 baş cins bala alınmışdır.

2015-ci ilin 6 ayında keçən ilin müvafiq dövrü ilə müqayisədə 1 milyon 339,6 min manat çox olmaqla 19 milyon 166,8 min manat dəyərində kənd təsərrüfatı məhsulları istehsal edilmişdir ki, bunun da 99,6 faizi qeyri-dövlət sektorunun payına düşür.

2015-ci ilin məhsulu üçün 9956,1 hektar sahədə payızlıq, 2577,8 hektar sahədə yazlıq səpin aparılmış, taxıl biçini kampaniyasına başlanılaraq 9694,4 hektar taxıl sahəsi biçilmiş, 27676,9 ton taxıl tədarük olunmuşdur.

Rayonda iribuynuzlu mal-qaranın sayı 19997 başa, xırdabuynuzlu mal-qaranın sayı 167856 başa çatmışdır.

Ötən ilin müvafiq dövrü ilə müqayisədə süd istehsalı 191,8 ton, et istehsalı 49,3 ton, yumurta istehsalı 2,5 min ədəd artmışdır.

Rayonda heyvanlar və quşlar arasında aparılan baytarlıq profilaktiki tədbirlər nəticəsində kütləvi iti yoluxucu xəstəliklər baş verməmiş, epizootik vəziyyət sabit olaraq qalmışdır.

Əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə 58 ədəd subartezian quyusu, qapalı boru şəbəkəsinin 0,8 km və beton kanalların 7 km hissəsi təmir edilmiş, Quşqara kəndində 1 ədəd subartezian quyusunun qazılmasına başlanılmış, daşqınların qarşısını almaq məqsədilə çay məcrasında 124 min kubmetr həcmində təmizləmə işləri görülmüşdür.

Rayonda hazırda fəaliyyət göstərən 18 sənaye müəssisələri tərəfindən bütövlükdə 6 milyon 471,9 min manat dəyərində sənaye məhsulu istehsal edilmiş, Sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi 31,6 faiz olmuşdur.

Rayonda sahibkarlığın inkişafına yaradılmış münbit şəraitin nəticəsi olaraq hüquqi şəxslərin sayı 507-ə çatmış, Sahibkarlığa Kömək Milli Fondu



tərəfindən 74 sahibkara 1 milyon 15,4 min manat dəyərində güzəştli kredit verilmişdir.

Poçt və rabitə müəssisələri tərəfindən müəssisə və təşkilatlara, eləcə də əhaliyə faktiki qiymətlərlə 491,7 min manat dəyərində xidmət göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 95,4 min manat (24,1 faiz) çoxdur.

Əhalinin axtəminatlı təbəqəsinin, sosial müdafiəyə ehtiyacı olan insanların maddi rifah halını yaxşılaşdırmaq məqsədilə 2015-ci ilin 6 ayı ərzində 522 ailə olmaqla hər bir ailəyə orta hesabla 160 manat məbləğində ünvanlı sosial yardım, 8576 nəfər əmək və sosial pensiyaçılara 8 milyon 280,9 min manat pensiya və müavinət ödənilmiş, rayon üzrə orta aylıq pensiyanın məbləği 161 manat 28 qəpik təşkil etmişdir.

Əhalinin məşğulluğunu təmin etmək və sosial müdafiəyə ehtiyacı olan vətəndaşların sosial müdafiəsini gücləndirmək məqsədilə 2015-ci ilin 6 ayı ərzində 215 nəfər işaxtaran Məşğulluq Mərkəzində qeydiyyata alınmış, onlardan 134 nəfəri münasib iş yerləri ilə təmin olunmuş, 8 nəfərə işsiz statusu verilmişdir.

Rayonda ekoloji vəziyyəti yaxşılaşdırmaq məqsədilə ağaccəkmə kampaniyası davam etdirilmiş, meşə dolaylarında 61 min ədəd, şəhər, qəsəbə və kəndlərdə, park və xiyabanlarda, yol kənarlarında 6600 ədəd müxtəlif cins ağac əkilmişdir.

Göygöl şəhərinin sanitar təmizliyinə xüsusi diqqət yetirilərək küçələrdən məişət tullantılarının vaxtlı-vaxtında daşınması təmin edilmişdir.

Əhalinin elektrik enerjisi təminatını və qaz təchizatını yaxşılaşdırmaq məqsədilə 2015-ci ilin birinci yarımilində elektrik təsərrüfatında 77,9 min manat dəyərində təmir-bərpa qurəşdırma işləri aparılmış, 69 ədəd müxtəlif güc transformatorları təmir edilmiş, 15,1 km elektrik veriliş xətti və qəza vəziyyətində olan 46 ədəd elektrik dayaqları yenisi ilə əvəz olunmuşdur.

Rayonun şəhər, qəsəbə və kəndlərində yeni salınmış yaşayış massivində 69 təsərrüfatı təbii qazla təmin etmək üçün 3200 metr uzunluğunda daşıyıcı və paylayıcı qaz xətti çəkilmiş, istismarda olan müxtəlif diametrli qaz xətlərinin korroziyaya uğrayan 933 metr hissəsində təmir-bərpa işləri görülmüşdür.

Gələcəkdə Toğanalı, Qarabulaq, Quşçu, Sarısu kəndlərini qazlaşdırmaq məqsədilə Çaykənd kəndi istiqamətində müxtəlif diametrli 13957 metr uzunluğunda daşıyıcı qaz kəmər xətti çəkilmişdir.

Hesabat dövründə rayonun Yeni Qızılca kəndinin qazlaşdırılmasına başlanılmış, 5000 metr uzunluğunda müxtəlif diametrli qaz xətti çəkilmişdir. Hazırda işlər davam etdirilir.

Əhali üzrə istehlak olunan qazın həcmi 15 milyon 720,6 min kubmetr təşkil etmiş, ödəniş 102,4 faiz yerinə yetirilmişdir.

Əhalinin içməli su ilə təminatının yaxşılaşdırmaq məqsədilə Çaykənd kəndində 400 metr su xətti çəkilmiş, Yeni Zod kəndində 1000 metr, Mollacəlilli kəndində isə 2000 metr metal boru plastik boru ilə əvəz olunmuşdur. İstehlak olunan suyun həcmi 648,6 min kubmetr təşkil etmiş, ödəniş 102,0 faiz yerinə yetirilmişdir.

Ümumtəhsil məktəblərinin və məktəbəqədər uşaq tərbiyə müəssisələrinin tikintisinə, onların maddi-texniki bazasının müasir tələblərə uyğun möhkəmləndirilməsinə göstərilən dövlət qayğısının nəticəsi olaraq 2015-ci ilin 6 ayı ərzində 95,5 min manat dəyərində inventar və avadanlıqlar alınaraq ümumtəhsil məktəblərinə paylanılmışdır. Rayonun bütün ümumtəhsil məktəblərinin 9 və 11-ci siniflərində buraxılış imtahanları mərkəzləşdirilmiş qaydada keçirilmiş, 9-cu siniflər üzrə imtahana buraxılan 712 nəfər şagirddən 712 nəfəri də əsas təhsil haqqında şəhədətnamə, 11-ci siniflər üzrə imtahana buraxılan 726 nəfər şagirddən 726 nəfəri də orta təhsil haqqında attestat almışdır.

Rayonda 41 kitabxana, 30 klub tipli müəssisə, 2 muzey, 2 musiqi məktəbi, 32 yerli əhəmiyyətli tarixi abidə vardır. 2015-ci ilin 1-ci yarısında 475 nüsxə kitab alınaraq kitab fondu 308379, elektron kataloq kitab fondu isə 814 nüsxəyə çatdırılmışdır.

Əhalinin sağlamlığının qorunub saxlanılması, onlara göstərilən tibbi xidməti yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tövsiyəsinə əsasən rayon əhalisi ümumi profilaktik müayinələrə cəlb edilərək Mərkəzi Rayon Xəstəxanası tərəfindən 38408 nəfər, 23627 nəfər isə instrumental müayinədən keçirilmiş, onlardan 6350 nəfər ambulator, 233 nəfər stasionar müalicəyə cəlb olunmuş 31 nəfər daha ixtisaslı tibbi yardım almaq üçün Bakı şəhərinə göndərmişdir.

Əhali arasında idmanın kütləviliyinin artırılmasına diqqət artırılmış, 3 klub, müxtəlif idman növü üzrə 292 bölmə təsis edilmiş, 2951 gənc idmana cəlb olunmuşdur.

2015-ci ilin 6 ayı ərzində Rayon İcra Hakimiyyətində vətəndaşların qəbul edilməsinə, onların ərizə və şikayətlərinə baxılmasına xüsusi diqqət yetirilmiş, müraciətlər hərtərəfli araşdırılaraq haqlı tələblər öz həllini tapmışdır.

Rayon İcra Hakimiyyətinə 2015-ci ilin 6 ayı ərzində 526 müraciət daxil olmuşdur.

Əhalini narahat edən problemləri vətəndaşlarla birbaşa ünsiyyətdə olaraq öyrənib lazımi tədbirlər görülməsini təmin etmək məqsədilə 2015-ci ilin 6 ayı ərzində 22 seyyar qəbul keçirmişdir. Keçirilmiş görüşlərdə 1479 nəfər iştirak etmiş, 138 nəfər çıxış edərək 67 müxtəlif xarakterli təklif, müraciət və şikayət söylənilmiş, yerli əhəmiyyətli sosial problemlər qaldırılmışdır.

Rayonda 24 bələdiyyə fəaliyyət göstərir. Bələdiyyələr rayonun şəhər, qəsəbə və kəndlərinin sosial-iqtisadi inkişafında, abadlıq-quruculuq işlərində, yerli əhəmiyyətli məsələlərin və əhalinin sosial problemlərinin həlli istiqamətində müəyyən işlər görmüş, yaşayış məntəqələrinin daxili yollarının təmiri, təmizlik-abadlıq işlərinin aparılması, yaşıllıqların salınması ilə bağlı layihələr həyata keçirmişlər.

Çıxışının sonunda, rayon rəhbəri tam əminliklə bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regionların sosial-iqtisadi inkişafına, eyni zamanda quruculuq-abadlıq işlərinin aparılmasına göstərdiyi diqqət və qayğının nəticəsi olaraq rayonda mövcud olan problemlərin aradan qaldırılması istiqamətində tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

Zabit XƏLİLOV,
"Respublika".